Ulu öndər Heydər Əliyevin Milli inkişaf strategiyası və modeli ölkəmizə böyük uğurlar gətirir

Artıq iyirmi dörd ildir ki, xalqımız ictimai-siyasi, sosial-iqtisadi həyatının yeni bir dövrünü—müstəqillik dövrünü yaşayır. Millətin tale məsələsi olan dövlət müstəqilliyinin əldə edilməsi, onun qorunub saxlanılması otuz ildən artıq bir müddət ərzində Azərbaycan dövlətçiliyinin məsuliyyətini öz çiyinlərində daşıyan, onu bir dövlət kimi tarixin sınaqlarından çıxaran ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Dövlət müstəqilliyinin əldə olunmasından sonra təməli ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş davamlı siyasi-iqtisadi inkişafımız Azərbaycanın Prezidenti İlham Əliyevin rəhbərliyi ilə daim yeni daha yüksək mərhələyə qalxır. Müstəqillik illərində ölkəmizin qazandığı möhtəşəm nailiyyətlər barədə öz qənaətini bildirən müsahibimiz ***iqtisadçı-ekspert, fəxri dəmiryolçu Məhərrəm Məmmədovdur:***

—Dövlət müstəqilliyinin ilk illərində Azərbaycanda xaos, vətəndaş qarşıdurması, hakimiyyətsizlik baş alıb gedirdi. Belə böhranlı, ağır vəziyyətdə Heydər Əliyevin yenidən ölkə rəhbərliyinə qayıdışı bütün bunların qarşısını birdəfəlik aldı. Ölkəmizdə sabitlik yarandı, inkişaf və tərəqqi dönəmi başladı. Siz o dövrü necə xarakterizə edərdiniz?

—1993-cü ilin iyununda Azərbaycan xalqı dövlətin idarə olunmasını yenidən Heydər Əliyevə etibar edəndə, bu dövlətin taleyi Tanrının ümidinə qalmışdı. Ölkədə hakimiyyətsizlik, hərc-mərclik baş alıb gedirdi, ölkənin müstəqil dövlət kimi mövcudluğu sual altında idi. Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ilə hakimiyyət boşluğu aradan qaldırıldı, ayrı-ayrı şəxslərə və siyasi qruplaşmalara xidmət edən silahlı birləşmələr ləğv edildi, cinayətkar ünsürlər cəmiyyətdən təcrid edildi. Azərbaycan xalqında gələcəyə inam, ruh yüksəkliyi yarandı. Ölkəmizin başı üstündə dolaşan qara buludlar dağılmağa başladı.

Ulu öndərimizin siyasi iradəsi, qətiyyəti, zəngin idarəçilik təcrübəsi, Vətənin azadlığı və müstəqilliyi uğrunda inamla apardığı gərgin mübarizə nəticəsində ölkədə ictimai-siyasi sabitlik, əmin-amanlıq bərqərar oldu, demokratik-hüquqi dövlət quruculuğunda sanballı nailiyyətlər əldə olundu. Heydər Əliyevin apardığı uğurlu xarici siyasət Azərbaycanın bir çox ölkələrlə, mötəbər beynəlxalq təşkilatlarla əlaqəsini möhkəmləndirdi. Bu gün Azərbaycanın ATƏT, Avropa Şurası, NATO, İslam Əməkdaşlıq Konfransı Təşkilatı və başqa nüfuzlu beynəlxalq təşkilatlarla sıx əlaqə saxlaması respublikamıza çox böyük fayda verir.

—Ulu öndər Heydər Əliyevin siyasi-iqtisadi kursunun Prezident İlham Əliyev tərəfindən müasir dövrün tələbinə uyğun uğurla davam etdirilməsi ölkəmizə böyük dividendlər gətirir. Təsadüfi deyil ki, bu gün Azərbaycan iqtisadi artımına görə dünyada lider mövqedədir. Bununla əlaqədar nə deyə bilərsiniz?

—Heydər Əliyevin müəyyənləşdirdiyi strateji inkişaf kursu və siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən böyük əzmlə, müasir dövrün tələblərinə uyğun uğurla davam etdirilir.

Qüdrətli və zəngin Azərbaycan, ərazi bütövlüyünün bərpası, iqtisadi tərəqqi və müasirləşmə, demokratik inkişaf, hər bir vətəndaşa sosial qayğı İlham Əliyev fəaliyyətinin təməl prinsipləridir. Heydər Əliyev ənənələrinə sadiq qalaraq fəaliyyətində demokratik dəyərlərə söykənən möhtərəm Prezidentimiz qısa zaman kəsiyində Azərbaycanı təkcə regionda deyil, bütövlükdə dünyada sayılıb-seçilən bir dövlətə çevirdi. İndiki qloballaşma şəraitində dilimizin, dinimizin, milli-mənəvi dəyərlərimizin qorunub saxlanması və inkişaf etdirilməsi, hərbi qüdrətin artırılması, ərazi bütövlüyümüzün bərpası üçün bütün imkanların səfərbər olunması ilə bağlı görülən işlər, Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz boru kəmərlərinin həyata vəsiqə alması, Bakı-Tbilisi-Qars dəniz yol xəttinin tikintisinə start verilməsi dövlət başçısının fəaliyyətinin ana xəttini təşkil etmişdir. Prezident İlham Əliyevin elan etdiyi yeni dövrün iqtisadi inkişaf strategiyası çevik və işlək mexanizmlər üzərində həyata keçirilir, proqressiv islahatlara əsaslanır. Bu isə son illər ərzində ölkə iqtisadiyyatının dinamik inkişafına əlverişli şərait yaratmışdır. İqtisadi qüdrət siyasi müstəqilliyin əsasıdır. Bunun üçün artıq Azərbaycanın möhkəm iqtisadi bünövrə kimi enerji, ərzaq və nəqliyyat təhlükəsizliyi təmin edilmişdir. Bu gün iqtisadiyyatın şaxələndirilməsinə nail olmaq üçün mühüm tədbirlər görülür. Azərbaycan dövləti düşünülmüş siyasətlə, konkret iqtisadi proqramlarla fəaliyyət göstərir.

Müasir qloballaşma prosesi daim irəli getməyi, elmi və texnoloji tərəqqiyə nail olmaqla iqtisadiyyatı dayanıqlı, sabit inkişaf etdirməyi tələb edir ki, ölkəmiz də məhz bu istiqamətdə gedir. Hazırda bu sahədə mühüm göstəricilərə nail olunub. Son 11 il ərzində ümumi daxili məhsul 3,4 dəfə, sənaye istehsalı isə 2,7 dəfə artmışdır. Azərbaycan iqtisadi göstəricilərinə görə dünyada liderlər sırasındadır.

İqtisadiyyatın dayanıqlığını təmin etmək və dünya bazarlarında möhkəm və nüfuzlu mövqeyə malik olmaq üçün müasir tələbləri ödəyən müxtəlif çeşidli sənaye sahələrinin yaradılmasına və dinamik inkişafına ciddi diqqət yetirilir. Bu gün istehsalın yeni texnologiyalarla təşkili dünya standartlarına uyğun məhsul istehsalına imkan verib. Azərbaycan iqtisadi modelində əsas aparıcı keyfiyyət odur ki, yerli potensial hərtərəfli öyrənilir, dünya bazarının tələbi dəyərləndirilir, beynəlxalq standartlara uyğun məhsul istehsal olunur. Azərbaycan rəhbərliyi diqqəti ölkədə müasir, rəqabətədavamlı iqtisadiyyatın yaradılmasına yönəldib. Dövlət başçısı deyib ki, dinamik iqtisadi inkişafın əsası təkcə neft-qaz sektoru ilə bağlı deyil. Əsas vəzifələr iqtisadiyyatı şaxələndirmək, neft amilindən asılılığı daha da azaltmaq, Azərbaycan xalqının rifah halını yaxşılaşdırmaq, hələ icra edilməmiş böyük infrastruktur layihələrini icra etmək və beləliklə, uzunmüddətli inkişaf üçün daha da güclü zəmin yaratmaqdır.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi düşünülmüş uzaqgörən siyasət nəticəsində Azərbaycan yola saldığımız 2014-cü ildə də dünyadakı mövqeyini qoruyub saxlamış, bir çox ölkələrdə baş verən qlobal problemlərdən qoruna bilmişdir. Ötən il də Azərbaycan sürətlə inkişaf edən ölkələrdən olmuş, makroiqtisadi sabitlik qorunmuş, iqtisadiyyatın şaxələndirilməsi davam etmiş və rəqabət qabiliyyəti artmış, nəzərdə tutulmuş bütün sosial proqramlar yerinə yetirilmişdir. Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında geniş məruzə ilə çıxış edən ölkə başçısı vurğulamışdır ki, iqtisadiyyatımız bu ilin 6 ayında da inkişaf edib, baxmayaraq ki, neftin qiyməti aşağı səviyyədədir. Ötən 6 ayda iqtisadiyyatımız 5,7 faiz artmışdır. Qeyri-neft sektoru 9,2 faiz, sənaye istehsalı isə təxminən 4 faiz artmışdır. Qeyri-neft sənayesi 14 faizdən çox artmışdır. Azərbaycanda inflyasiya aşağı səviyyədədir—3,5 faiz. Əhalinin pul gəlirləri ənənəvi olaraq inflyasiyanı üstələyir və 6,2 faiz artmışdır. Kənd təsərrüfatında yüksəliş 7,3 faizdir.

—Ölkəmizin iqtisadi inkişafı həm də Azərbaycana beynəlxalq səviyyəli, mötəbər tədbirlərin uğurla keçirilməsinə də zəmin yaradır. Bu yaxınlarda uğurla başa çatan ilk Avropa Oyunları da Azərbaycanın nəyə qadir olduğunu bir daha sübut etdi və ölkəmizi bir idman ölkəsi kimi bütün dünyada tanıtdı. Bu barədə danışmağınızı xahiş edirik.

—Son illər Azərbaycanın müstəqil, güclü dövlət kimi inkişafı və qazandığı nailiyyətlər hər bir sahədə olduğu kimi, ölkə idmanının böyük uğurlar, zirvələr fəth etməsinə imkan yaratmışdır. Müstəqil Azərbaycanda sürətli iqtisadi artım Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyevin diqqət və qayğısı ilə idman sahəsində dirçəliş, uğurlar qazanılmasına imkan vermişdir. "Bakı-2015" ilk Avropa Oyunlarının ölkəmizdə keçirilməsi Azərbaycanın ictimai-siyasi, iqtisadi yüksəlişinin, həm də siyasi nüfuzunun ən bariz təzahürüdür. İyunun 12-də Bakıda start götürən ilk Avropa Oyunlarında 50 ölkəni təmsil edən 6 mindən çox idmançı 20 idman növü üzrə medallar qazanmaq uğrunda gərgin mübarizə apardı. İlk Avropa Oyunlarının 17 günü əmin-amanlıq, sabitlik şəraitində başa çatdı. Oyunlarda 50 ölkədən 42-si medal qazandı. Azərbaycan atletləri isə bütövlükdə 56 medal qazandılar, bundan 21-i qızıl medal olmaqla ümumi medallar cədvəlində ikinci yeri tutdular. Bütün bu qələbələrin qazanılması 17 gün ərzində həyəcanlı günlər yaşayan, müxtəlif növ yarışlarda şəxsən iştirak edib idmançılarımıza dəstək olan Azərbaycan Prezidenti İlham Əliyevin böyük xidmətləridir.

Böyük qələbə və tarixi hadisə münasibətilə xalqımızı təbrik edən ölkə başçısı İlham Əliyev demişdir: "Bu, doğrudan da tarixi hadisədir. Çünki bu vaxta qədər Avropa Olimpiya Oyunları keçirilməmişdir və ilk oyunların Bakıda keçirilməsi böyük tarixi hadisədir, ölkəmizin böyük uğurudur".

"Bakı-2015" ilk Avropa Oyunlarının ölkəmizdə hazırlanması və keçirilməsinə diqqətlə yanaşılmışdır. Təşkilat Komitəsinin sədri, Azərbaycanın birinci xanımı, Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban Əliyeva Azərbaycanda ilk Avropa Oyunlarına ev sahibliyinin şərəf işi olduğunu söyləmiş, bu mühüm dövlət tədbirinin layaqətlə, uğurla yerinə yetiriləcəyinə dərin inamla demişdir: "...Biz çalışmalıyıq ki, bu oyunlar ən yüksək səviyyədə hazırlansın və ən yüksək səviyyədə keçirilsin. Ümumiyyətlə, bu, Avropanın idman hərəkatının tarixində yeni bir dövrün başlanmasıdır və Azərbaycan bu tarixin ilk səhifəsini yazan ölkədir. Qeyd etməliyəm ki, Azərbaycan hökuməti və xalqı bu oyunları dəstəkləyir. Biz ölkəmizin Avropa Olimpiya ailəsinin tarixində əsas rol oynayacağından çox həyəcanlıyıq. Bu da öz növbəsində bizdən ilk təcrübənin uğurlu olmasının təminatını tələb edir. Öz tərəfimizdən sizi əmin edə bilərik ki, bu məqsədə nail olmaq üçün Azərbaycan əlindən gələni etməyə hazırdır".

I Avropa Oyunlarının hər günü tarixə qızıl hərflərlə yazıldı. Azərbaycan Avropa Oyunlarına ən yüksək səviyyədə ev sahibliyi etməklə bütün dünyaya göstərdi ki, ölkəmiz istənilən beynəlxalq idman yarışlarını uğurla keçirməyə qadirdir. Ölkəmiz bu oyunları ən yüksək səviyyədə keçirməklə Avropa Oyunlarının standartlarını müəyyənləşdirdi. "Bakı-2015"in Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva oyunların açılış mərasimində demişdir: "Bu möhtəşəm bayram müstəqil Azərbaycanın, hər bir Azərbaycan vətəndaşının qələbəsidir. Müstəqillik illərində əldə etdiyimiz uğurlar və nailiyyətlər nəticəsində bu gün burada, gözəl Bakıda Avropa Olimpiya hərəkatının tarixində yeni səhifə yazılır. Bu səhifəni biz yazırıq, Azərbaycan xalqı yazır".

"Bakı-2015" ilk Avropa Oyunları uğurla başa çatdı. Təntənəli bağlanış mərasimində çıxış edən ilk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyeva qazanılan zəfərlərə görə Azərbaycan xalqını, idmançılarımızı təbrik etdi və bu qələbələrin əldə olunmasında Azərbaycan Prezidenti İlham Əliyevin xidmətlərini obrazlı şəkildə belə ifadə etdi: "17 gün ərzində yaşadığımız xoş anlar üçün Sizə dərin minnətdarlığımızı bildiririk. Mən idman leksikasından istifadə edərək, deyə bilərəm ki, bu 17 gün ərzində Azərbaycan xalqı bir komanda idi və siz bu komandanın şərəfli kapitanı idiniz. Belə olan halda, əlbəttə, qalib gəlməmək mümkün deyildi".

—Son illər iqtisadiyyatımızın sürətlə artmasının fonunda ölkənin yol-nəqliyyat kompleksində də böyük işlər görülür. Bu sektorda yenidənqurma, müasirləşmə, dünya nəqliyyat sisteminə inteqrasiya uğurla həyata keçirilir. Artıq ölkəmiz nəqliyyat sahəsində logistik bir mərkəzə çevrilib. Bu işlərdə dəmiryolu nəqliyyatında da çalışanların fəaliyyəti təqdirəlayiqdir. Müstəqillik illərində ***bu sahədə görülən genişmiqyaslı işlər bu yaxınlarda işıq üzü görmüş "Nəqliyyatın dinamik inkişaf strategiyası"*** **kitabında geniş şəkildə şərh olunur.**

—Bu gün Azərbaycanda uğurla həyata keçirilən mütərəqqi iqtisadi siyasət bütün sahələrlə bərabər, nəqliyyat sektorunun da davamlı, dinamik inkişafını təmin edib. Dövlətimiz tərəfindən reallaşan sosial-iqtisadi tərəqqi strategiyasının fonunda ayrı-ayrı sahələrin inkişaf hədəfi konkret proqramlara əsaslanır. Bu səbəbdəndir ki, ölkəmizdə nəqliyyat sektorunun inkişafı ölkə rəhbərliyinin diqqət və qayğısı sayəsində ardıcıl xarakter daşıyır. Onu da qeyd edim ki, bu istiqamətdə görülən işlər, əldə olunan nailiyyətlər mənim bu yaxınlarda işıq üzü görən "Nəqliyyatın dinamik inkişaf strategiyası" kitabımda sistemli şəkildə əks olunub. Vurğulayım ki, Azərbaycanda nəqliyyat siyasətini geniş şəkildə əks etdirən materialların yer aldığı bu nəşrin elmi redaktoru tarix üzrə fəlsəfə doktoru Lətifə Məmmədova, məsləhətçisi Yeni Azərbaycan Partiyası "Azərbaycan Dəmir Yolları" QSC ərazi təşkilatının sədri Xeyrulla Hümbətovdur.

Kitabda ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin hər iki, həmçinin Prezident İlham Əliyevin hakimiyyəti dövründə respublikamızda nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi, yeniləşdirilməsi və genişləndirilməsi istiqamətində görülən işlər tədqiqat obyektidir. Kitab ümummilli lider Heydər Əliyevin "Mən dəmiryolçu ailəsində böyümüşəm. Hesab edirəm ki, dəmiryolunu həm bilirəm, həm də sevirəm. Dəmiryolunun Azərbaycanda dərin kökləri və böyük ənənələri var. Dəmiryolçular həmişə çox intizamlı olublar. Dəmiryolunun özü çox intizam tələb edir" sözləri ilə başlayır. Toplunun ilk fəsli isə "Heydər Əliyev və Azərbaycan dəmiryolunun inkişaf mərhələsi" adlanır. Növbəti fəsillərdə isə Heydər Əliyevin respublikaya rəhbərliyinin ikinci dövründə müstəqil Azərbaycanın Avropaya və bütövlükdə dünyaya inteqrasiyası, nəqliyyat kompleksinin üzərinə düşən yükün geniş şərhi verilir. Nəzərə çatdırılır ki, "Əsrin müqaviləsi"nin imzalanması və qədim İpək Yolunun müasir kommunikasiya şəklində bərpası ölkəmizin nəqliyyat şəbəkəsini dünyanın güclü və böyük yükdaşıma şəbəkəsi ilə birləşdirdi.

Azərbaycan Prezidenti İlham Əliyev ulu öndərin başladığı işləri, yeni neft strategiyasını uğurla davam etdirdi. Dövlət başçısının rəhbərliyi ilə Bakı-Tbilisi-Qars yeni dəmiryolu xəttinin çəkilişi regionun lider ölkəsi olan Azərbaycanın nəyə qadir olduğunu göstərdi və bütün bunlar Azərbaycanın iqtisadi müstəqilliyini bütün dünyaya bir daha nümayiş etdirdi. "Nəqliyyatın dinamik inkişaf strategiyası" kitabında vurğulanır ki, bütün sahələrdə olduğu kimi, yol-nəqliyyat kompleksində də hazırkı inkişaf və tərəqqi Heydər Əliyev siyasətindən qaynaqlanır və ulu öndərimizin xalqımız qarşısında misilsiz xidmətlərinin tarixi əhəmiyyətinə söykənir.

Ölkənin nəqliyyat sektorundakı inkişaf, yenidənqurma işləri 2015-ci ilin ötən 6 ayında da davam etdirilmişdir. ADY QSC-nin sədri Cavid Qurbanovun şəxsi təşəbbüsü ilə Bakı və Sumqayıt arasında sərnişindaşımanın təşkili haqqında qərar qəbul edilməsi Bakı və Sumqayıt arasında elektrik qatarlarının yeniləşdirilməsi, yol infrastrukturunun yenidən qurulması, Bakı-Sumqayıt arasında sərnişinlərin rahat və vaxtlı-vaxtında daşınmasını təmin edəcəkdir. Bundan başqa, Abşeron yarımadasında elektrik qatarlarının gələcəkdə Bakı Aeroportu istiqamətində də hərəkəti nəzərdə tutulur. Bu istiqamətdə də qatarların hərəkəti sərnişinlərin maneəsiz olaraq mənzil başına çatdırılmasına imkan verəcək. Bakı-Xırdalan-Sumqayıt sahəsində 5900 metr yol əsaslı təmir olunur. Bundan başqa, Sumqayıt baş stansiyasına daxil olmadan Sumqayıt stansiyasına hərəkət etmək üçün 1.65 kilometr uzunluğunda yeni birləşdirici yolun tikintisi nəzərdə tutulur. Əsaslı təmir işləri başa çatdıqdan sonra elektrik qatarlarının Bakı sərnişin stansiyasından Sumqayıt sərnişin stansiyasına qədər getməsinə cəmi 40 dəqiqə vaxt sərf olunacaq.

Ötən 6 ayda nəqliyyat sektorunda fəaliyyət göstərən təsərrüfat subyektləri tərəfindən 2015-ci ilin yanvar-iyun ayları ərzində 109,6 milyon ton yük daşınmışdır. Nəqliyyat vasitələri ilə daşınmış yüklərin 59,7 faizi avtonəqliyyat, 8,2 faizi dəmiryolu, 3,3 faizi dəniz nəqliyyatı, 28,8 faizi isə boru kəməri vasitələri ilə həyata keçirilmişdir.

Dəmiryolu nəqliyyatı ilə yük daşıması cari ilin yanvar-iyun aylarında 9,0 milyon ton olmuşdur. Orta hesabla sutkada 478 vaqon yüklənmiş, 485 vaqon boşaldılmışdır. Sutka ərzində dəmiryolunun Şimal istiqaməti üzrə 19,6 min ton, Qərb istiqaməti üzrə 2,5 min ton yüklənmə işi yerinə yetirilmişdir. Metro nəqliyyatı üzrə də ötən dövr ərzində sərnişin daşımalarında artım müşahidə olunmuşdur. Belə ki, bu dövr ərzində metro nəqliyyatından istifadə edən sərnişinlərin sayı 3,7 faiz artaraq 112,2 milyon nəfər olmuşdur.

Bakıda ictimai nəqliyyat - metro və avtobuslar vahid ödəniş kartına keçib. Avqustun 8-dən etibarən metro stansiyalarına daxil olmaq üçün vahid ödəniş kartı kimi Bakı kart və Bakı Kart Məhdud İstifadə üçün kartlarından istifadə olunur. Kartları bütün stansiyaların vestübüllərində və Baku Bus MMC-yə məxsus marşrutların dayanacaqlarında quraşdırılmış terminallardan almaq mümkündür. Bundan başqa metroda baş verə biləcək fövqəladə halların qarşısının vaxtında alınması üçün müasir, təcili texniki yardım maşınları istifadəyə verilib.

Bu gün dinamik inkişaf edən Azərbaycanda qarşıya qoyulmuş bütün vəzifələr vaxtında icra olunur. Ölkəmiz bundan sonra da cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə sürətlə inkişaf edəcək, yeni-yeni uğurlara imza atacaqdır.

—Məhərrəm müəllim bizim sizinlə görüşümüz sizin 60 illik yubileyiniz ərəfəsinə təsadüf edir. Sizi bu yubiley münasibətilə ürəkdən təbrik edirik, sizə möhkəm cansağlığı, şərəfli fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq.

Əli SADIQOV,
"Respublika".